# BÖYÜK ŞƏXSİYYƏT



*Böyük şəxsiyyətlər yetişir az-az,*
*Hər yerdə, hər zaman inci tapılmaz!*

**Bu, bir həqiqətdir ki, ulu öndər Heydər Əliyevi, xalqı xilas etmək kimi ali iradəni yerinə yetirməkdən heç nə, heç bir qüvvə saxlaya bilmədi. O, yeni müstəqil Azərbaycan dövlətini qurdu, inkişaf etdirdi, müstəqilliyinin qarantı olaraq onun varlığının mənasına çevrildi.**

Hələ sovetlər dönəmində həmişə dilindən düşməyən "Qoy, ədalət zəfər çalsın" devizi altında ulu öndər əzmlə çalışmış, xalqımızın bir millət kimi formalaşmasında, onun rifahı naminə respublikamızın gələcək iqtisadi bazasının yaradılmasında, dövlətçiliyin inkişafında, zaman etibarilə uzağa hesablanmış nəhəng işlər görmüş, taleyüklü məsələləri beynəlxalq səviyyədə həll etmiş, dünyanın əfsanə adlandırdığı "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuş, Azərbaycan dövlətinin iqtisadi və siyasi müstəqilliyini təmin edərək xalqımızın xoşbəxt gələcəyinə zəmin yaratmışdır.

Mən, bu kiçik yazımda, o dahi şəxsiyyətin saymaqla qurtarmayan qlobal işlərindən danışmaq, o ilahi möcüzənin sirrinə varmaq fikrindən çox uzağam. Uca Tanrının elə möcüzələri var ki, onları ancaq damla-damla, zərrə-zərrə anlamaq və anlatmaq olar...

Belə ilahi möcüzələrin birmənalı ifadəsi demək olar ki, həmişə mümkünsüz olur... Ancaq bu adi həqiqəti bilə-bilə yenə də yazıram. Qarşısıalınmaz bir güc, mənə rahatlıq verməyən böyük bir mənəvi borc duyğusu, sıravi vətəndaş vicdanımın səsi mənə "yaz" - deyir! Sanki indiyədək deyilməyən bir hikmətin açıqlaması məndən tələb edir...

Bu sözlər, ulu öndər Heydər Əliyevin qeyri-adi fitri istedadının, siyasi güc və əzəmətinin qarşısında heyrətimdən doğan hisslərimin sözlə ifadəsidir...

Özünü dərk etməyən, söz yox ki, başqasını da dərk edə bilməz. İnsan üçün hər şeyin varlığı özünüdərkdən başlayır. Baxmaq hələ görmək deyil, görmək üçün dərk etmək lazımdır. İnsanın dərk etmədiyi hər şey onun üçün yox kimidir. Çünki onu olduğu kimi yox, göründüyü kimi görür.

Yüksək əxlaqi və mənəvi keyfiyyətləri özündə ehtiva edən ulu öndər Heydər Əliyev haqqında fikir söyləmək həm də böyük məsuliyyət tələb edir.

Dahi şəxsiyyətin mənə göstərdiyi xüsusi diqqət və qayğı, bu gün imkan verir ki, onun haqqında düşündüklərimi danışım, yazım. Mən buna əminəm ona görə ki, başqa sahədə işləsəm də, mütəmadi olaraq verdiyim siyasi müsahibələrə görə mənə heç bir irad bildirilməmiş və qadağalar qoyulmamışdır.

Bu nöqteyi-nəzərdən, Böyük şəxsiyyət haqqında bu günə qədər deyilməyən fikirlərimi 10 May münasibətilə açıqlamaq istəyirəm.

1993-cü ildə müdrik Azərbaycan xalqının tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev AXC-Müsavat cütlüyünün "rəhbərliyi" nəticəsində yaranmış özbaşınalıqları, qanunsuz silahlı qruplaşmaları aradan qaldırdı, baş verə biləcək vətəndaş müharibəsinin qarşısını aldı, başqa xalqlara mənsub olan dini ocaqların sökülməsinə edilən cəhdlər nəticəsində qonşu dövlətlərlə qızışmaqda olan düşmənçilik alovunu söndürdü. Əmin-amanlıq, sülh şəraitində yeni müstəqil Azərbaycan dövlətini qurdu. Azərbaycanda müxtəlif dinlərin və etiqadların mehriban ailə kimi dostluq şəraitində yaşamasını təmin etdi, milli, dini ayrı-seçkiliyi aradan qaldırdı, tolerantlığın əsasını qoydu. Bu tolerantlığın kökləri isə daha dərinlərə gedir. Din tarixinə görə tolerantlığın yolu müqəddəs Mədinə şəhərindən başlayır.

Yeri gəlmişkən, dini dar edənlərdən fərqli olaraq, mən dindar deyiləm, o dindarlardan ki, vaxtilə "cəbhəçilərin" qürurumuzu ifadə edən "bəy" titulunu gözdən saldığı kimi, "Qurani Kərim"i mövhumata çevirir, İslamı gözdən salırlar. "Qurani Kərim" mövhumat deyil, kəşf edilmiş və ediləcək sirlərin kodlaşdırılmış məcmuəsidir. Bunu dərk etmək üçün dini məktəblər adı altında fəaliyyət göstərən "şeytan yuvalarında" təhsil almağa ehtiyac yoxdur, öz ana dilinin qrammatikasını dərindən bilmək, şifahi və yazılı formalarının incəliklərini daha yaxşı öyrənmək, tarixi həqiqətlərin mənbəyi olan kitabları oxumaq, mütaliə etmək kifayətdir. "Dini elm", "dünyəvi elm" ifadələri cəmiyyəti iki qrupa ayırır, dövlət daxilində bir-birinə etinasız yanaşan iki cəbhə yaradır. Bunun yaradacağı gizlin təhlükə görünməsə də, o, hər an alovlana bilər. Bu təhlükəni aradan qaldırmaq üçün dünyəvi elmin və dünyəvi tarixin köklərinin "Qurani Kərim"ə söykəndiyi həqiqəti təlqin etmək, qruplaşmaların qarşısını almaq mühüm məsələdir. Dini tarixi bilmədən dünyəvi tarixdəki saxtalıqları həqiqət kimi qəbul edirik.

*Bilməsən kimlərlə necə vuruşub*
*Ulu babaların, Peyğəmbərlərin,*
*Necə gəlib çıxdın bu ağ günə sən,*
*Qədrini bilməzsən ulu öndərin!*

Bəli, ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən və Prezident İlham Əliyev tərəfindən davam etdirilən bugünkü tolerantlığın əsası hələ 624-cü ildə Mədinə şəhərində qoyulub. Bu məqamda bir rəvayəti xatırlamaq yerinə düşərdi. Belə ki, Peyğəmbər (s) Məkkədən Mədinəyə hicrət etdiyi ilk gündən Mədinədə yəhudi, xristian və müsəlmanlar arasında çox gərgin - düşmənçilik ab-havasının şahidi olur. Belə bir düşmənçilik şəraitində yaşamağın mümkünsüzlüyünü görən Allahın Rəsulu Mədinədə ayrı-ayrı inanclı insanların müsəlmanlar, yəhudilər və xristianların arasında dostluq yaratmaq üçün yaşamasını təmin edən bu anayasaya görə, hər xalqı öz dini vacibatını həyata keçirməkdə sərbəstlik verdi. Məhəmməd Peyğəmbər (s.a.s) digər dinlərə mənsub olan insanlara İslamın mane olmayacağını bildirdi. İslam dininin azadlıq və ədalət üzərində qurulduğunu onlara bəyan etdi...

Belə ki, "...52 maddədən ibarət olan bu qanunda 25 maddə müsəlmanlara və 27 maddə isə yəhudi və xristianlara, müsəlman olmayanlara aid idi. Əski dinlərin heç birində başqa dinlərə belə xoşgörü ilə yanaşılmamışdır.

Maddələrdən biri də Mədinə haqqında idi. Bu müddəaya görə, Mədinə müqəddəs şəhər elan edilir və bu şəhərdə savaşmaq yasaqlanırdı.

Beləliklə, Məhəmməd Peyğəmbər (s.a.s) özünün ədalətli qanunları ilə Mədinədə ayrı-ayrı inanclı xalqlar arasında dostluq münasibətini yaradır, onların sülh və əmin-amanlıq şəraitində yaşamalarını təmin etməklə, tolerantlığın əsasını qoyur. Bu gün Azərbaycan da bir tolerant ölkə kimi bütün dünya xalqlarına nümunədir!

Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsində qeyd edilir ki, din dövlətdən ayrıdır. Azərbaycan dövlətinin Prezidenti cənab İlham Əliyev 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri ilə dünya hərb tarixində misli görünməmiş ədalət nümayiş etdirərək möhtəşəm Zəfər çaldı. Ali Baş Komandanın rəhbərliyi və xüsusi nəzarəti altında beynəlxalq hüquq və müharibə qanunlarının pozulmasına imkan verilmədi, düşmən dövlətin bizim mülki insanlara qarşı etmiş olduğu hərbi cinayətlərə baxmayaraq, onların mülki vətəndaşlarına toxunulmadan müharibə yalnız işğalçı silahlı qüvvələrə qarşı aparıldı. Hətta bir körpənin burnunun qanaması na belə yol verilmədi.

Məhz işğalçılara qarşı, Vətən yolunda, haqq yolunda vuruşduğuna görə Allah-taala bu möhtəşəm qələbədə Azərbaycana və Azərbaycan xalqına yar və yardımçı oldu.

Uca Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı, şanlı ordumuza uğurlar diləyirik.

Hələ sovetlər dövründən bu günümüzü görən və gələcək qalib ordumuzun bazasını yaradan ulu öndər Heydər Əliyevin ruhu şad olsun.

Təsadüfi deyildir ki, "Vətən mənə oğul desə, nə dərdim, mamır olub qayasında bitərdim!" deyən, kimsəyə dəyərindən artıq qiymət verməyən və dediyi sözün dəyərini bilən, haqsızlıq qarşısında baş əyməyən üsyankar xalq şairi Məmməd Araz heç kim haqqında deməmdiyi yüksək fikri məhz ulu öndər Heydər Əliyev haqqında demiş və bunu 1994-cü il 4 oktyabr dövlət çevrilişinə edilən cəhd zamanı yazdığı "Bir gecənin əks-sədası" manifestində böyük iftixar hissi ilə xalqa çatdırmışdır:

"O gecə hamının yadındadır: təşviş dolu, zəlzələ qorxulu gecə!

Prezident Heydər Əliyev Respublika radiosu və televiziyası ilə birbaşa xalqa müraciət etdi. Xalq dərin həyəcan içində idi...

İkinci müraciətdən sonra artıq bütün xalq ayaq üstə idi!

Prezidentin müdrikliyi onda idi ki, o, özünü itirmədi! Gecikmədi!

Xalqın sərvaxtlığı onda idi ki, o, qəfildən ayağa qalxdı və çevikliyini saxladı, yoxsa Azərbaycan dövləti, milli müstəqilliyimiz, gələcəyimiz darmadağın ola bilərdi!

O gecə, Gəncənin, Bakının, eləcə də bütün Azərbaycanın yer üzündə son gecəsi ola bilərdi! Əgər xalqımız həmin gecə dərin uçurum qarşısında dayandığını vaxtında görməsəydi, duymasaydı...

Hamının qənaəti belə idi; o gecə əbədi gecəyə tuş olmaq bəlasından qurtardı bizi... Nə yaxşı ki, o məqamda zəkamızı itirmədik! Nə yaxşı ki, o məqamda Prezidentin əlində olan qalibiyyət bayrağını xalqımız unutmadı! Xalq sübut elədi ki, yeri gələndə birləşib bir olmağı bacarır!".

ABŞ-ın baş siyasi ideoloqu Z.Bjezinski Heydər Əliyevi bir siyasi xadim kimi belə qiymətləndirir: "Heydər Əliyevin ölümü ilə dünya siyasətində bir boşluq yarandı". Mənə elə gəlir ki, cənab Bjezinski sağ olsaydı, indi belə deyərdi: "O boşluq artıq cənab İlham Əliyevin varlığı ilə doldurulmuşdur!".

Düşünürəm ki, ulu öndər haqqında nə qədər yazsalar da, nə qədər yazsaq da, yenə də onun siyasi portretini olduğu kimi təsvir edə bilmərik.

Yaxşı olar ki, onun özünün dediklərinə diqqət yetirək... *"Son dərəcə səmimi bir adamam. Xasiyyətim belədir. Çox gənc yaşlarımdan böyük bir həyəcanla SSRİ-yə - ... inandım. Hisslərimi də buna bağladım... Çünki sosialist inqilabı dövründə doğulub böyümüşdüm, başqa bir siyasi sistem, ideologiya tanımırdım. SSRİ də, Azərbaycan da xarici dünya üçün qapalı idi.*

*Azərbaycan KP MK-nın Birinci katibi olarkən daha geniş miqyasda düşünməyə, marksizm-leninizmi müxtəlif baxımlardan təhlil etməyə başladım. DTK-da işləyərkən çox şey görmüşdüm. Moskvanın təktərəfli, türk millətlərini əsarətdə saxlamaq siyasətinin ilk gündən şahidi oldum. Daxilən buna qarşı üsyan etsəm də, həyatda buna imkanım yox idi. Azərbaycan KP MK-nın Birinci katibi işləyərkən açıq şəkildə Moskvaya qarşı çıxmağım, toqquşmağım mümkün deyildi. Moskva bütöv bir imperiya siyasətini tətbiq edirdi. Əgər onların əleyhinə açıq şəkildə çıxsa idim, həm bunun bir əhəmiyyəti olmayacaqdı, həm də Əliyev ölkədəki digər katiblər kimi məhv ediləcəkdi.*

*Yavaş-yavaş mən də xalqımın, doğma millətimin milli hisslərini oyatmağa başladım. Xalqın milli istəklərini, Azərbaycan türklüyünün milli oyanışını reallaşdırmaq arzusunda idim.*

*Bu işləri Moskvaya hiss etdirmədən, onu narahat etmədən görmək istəyirdim. Moskvada Sovet ideologiyasına daha yaxından bələd oldum. Fikirlərim get-gedə daha da durulurdu, aydınlaşırdı. Moskvadan xarici dünyanı həm daha açıq, həm də daha yaxından öyrənmək imkanı əldə edirdim.*

*...Gördüyüm bu idi ki, Kommunist partiyası mənim millətimə, xalqıma xəyanət edirdi. Azərbaycanın müstəqilliyini istəyirdim. Bu isə Kommunist partiyası ilə reallaşacaq iş deyildi.*

*Çünki sovet idarəçiliyi türk və müsəlman respublikalarının hesabına xüsusilə çox kapital keçirmir, az kredit ayırırdı. Fabrik-zavod tikilişi və s. Bu kimi respublikalarda iqtisadi və siyasi potensialı gücləndirəcək işlər üçün maliyyə buraxılışında "xəsislik" göstərirdilər. Sovet idarəçiliyinin 70 illik siyasətinə çevrilmiş bu münasibəti aradan qaldırmaq o qədər də asan iş deyildi. Çünki pul da, texnologiya da Moskvadan gəldiyi üçün, o qədər də böyük iş görmək mümkün deyildi. Mən mövqeyimdən istifadə etməklə, bu qanunu dəyişdirə bildim.*

*Azərbaycan Respublikasında Siyasi Büroya namizəd və üzv olduğum vaxtlarda inkişaf meyilləri xeyli güclənmişdi. Ölkəmiz dünyada daha çox tanınmağa başladı. Türkiyədə Azərbaycanı yaxşı tanıyırdılar, lakin bu türk ölkəsi bizim üçün o qədər də açılmamışdı. Mənim səylərim nəticəsində sədlər aradan götürüldü. Xarici ölkələrdən turistlər, alim və sənətkarlar, siyasətçilər, baş nazirlər, nazirlər Azərbaycanı ziyarətə gəlməyə başladılar. Ölkəmiz tanındıqca, onun nüfuzu da artırdı.*

*Mən 10 il Moskvada yaşadım. Özü də ən yüksək vəzifədə çalışdım. Azərbaycan xalqının tarixində, müsəlman aləminin tarixində - nə keçmiş rus imperiyasında, nə də Sovet imperiyasında bu cür zirvəyə çatan azərbaycanlı müsəlman olmamışdır. Bu da tarixdir. Bəziləri deyir, Heydər Əliyev "Politbüro" üzvü olub, nə bilim, nə olubdur... Bəli olmuşam. Mən bununla fəxr edirəm. Çünki Azərbaycan xalqını tanıtmışam. Azərbaycan xalqını Kreml sarayına qaldırmışam. Bununla fəxr edirəm! Ancaq mən orada 10 il yaşadım, ürəyim Azərbaycanla idi... Gecəm də Azərbaycan idi, gündüzüm də!*

*Azərbaycana məhəbbət, xalqa məhəbbət mənim qanımdadır, beynimdədir, bütün varlığımdadır. Heç kim, heç nə, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz! Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, MƏN AZƏRBAYCANLIYAM!".*

Bəli, bu böyük məhəbbət qarşılığında, nə qədər ki, Azərbaycan və Azərbaycan xalqı yaşayır, ulu öndər Heydər Əliyev də yaşayacaqdır...

**Həsən KAMİL,**
**"Qızıl Qələm" mükafatı laureatı.**